# Gənclərdə vətəndaşlıq və vətənpərvərlik hisslərinin formalaşdırılması

Vətənin tarixi üçün qürur hissi duymaq vətənpərvərliyin məhək daşlarından biridir. Bunun üçün gənclərdə tarix haqqında obyektiv biliklər olmalıdır. Vətən tarixi haqqında verilən biliklərdə qəhrəmanlıq və vətənə sədaqətliliklə bağlı səhifələr önə çəkilməlidir.

Yeniyetmə və gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyə edilməsi ölkəmizin təcavüzə məruz qaldığı indiki şəraitdə son dərəcə aktual və təxirəsalınmaz bir vəzifədir.

Gənclər arasında müəyyən fərarilik və ordudan yayınma hallarının mövcudluğu göstərir ki, hərbi vətənpərvərlik hisslərinin aşılanması həllini tələb edən ən aktual problemlərdən biridir. Tədqiqatlar göstərir ki, bu halların ən başlıca səbəbi gənclərin ordudakı vəziyyəti qeyri-normal hesab etməsidir. Ordudakı mənəvi-psixoloji iqlimin sağlamlaşdırılması hərbi vətənpərvərlik hisslərinin inkişafı ilə üzvi surətdə bağlıdır.

Hərbi vətənpərvərlik hissinin şəxsiyyətə aşılanması hələ uşaqlıq dövründən başlayır, bu işdə ardıcıl və bir növ paralel olaraq ailə, uşaq bağçası, məktəb, ordu, ali məktəb və başqa institutlar iştirak edir.

Orta məktəblərdə və tədris müəssisələrində hərbi vətənpərvərlik mövzusunun tədrisini məqbul hesab etmək olmaz. Dərsliklərdə bu mövzuya aid çox az sayda materiallara rast gəlmək olar. Qeyd olunan materialların çox böyük hissəsi aşağı siniflərə təsadüf edir. Yuxarı siniflərdə bu mövzuların sayı getdikcə azalır. Hətta son vaxtlar çapdan çıxmış «Azərbaycan tarixi» dərsliyində də hərbi vətənpərvərlik nöqteyi-nəzərindən gənclərimizə örnək ola biləcək bir çox tarixi şəxslər və hadisələr haqda son dərəcə səthi məlumat verilmişdir.

İstər orta məktəblərdə, istərsə də digər tədris müəssisələrində hərb tariximizin tədrisi yarıtmaz vəziyyətdədir və görülən işlər bir növ şablon xarakterlidir.

Ali və orta ixtisas məktəblərində hərbi vətənpərvərlik hisslərinin aşılanması vəzifəsinin təkcə hərbi müəllimlərin üzərinə qoyulması metodoloji cəhətdən düzgün hesab oluna bilməz. Bu işlə eyni zamanda ictimai elmləri tədris edən müəllim və professorların məşğul olması da zəruridir. Ümumi fiziki və hərbi hazırlıqla yanaşı həmin müəssisələrdə hərbitətbiqi oyunlar, müvafiq viktorinalar və qəzetlərdə bu mövzuda ən yaxşı yazılar üzrə müsabiqələr keçirilmir. Halbuki bütün bunlar hərbi vətənpərvərlik hisslərinin gücləndirilməsində müsbət rol oynaya bilər.

Hərbi vətənpərvərlik tərbiyəsinin aşılanmasında hərbi marşların, sıra mahnıların rolu böyükdür. Sovet Ordusunun istifadə olunan mahnı və marşları istər mahiyyət, istərsə də dil cəhətdən bu məqsəd üçün yararlı hesab oluna bilməz. Bu boşluğun doldurulması üçün şair və bəstəkarların, musiqi müəssisələrinin işə cəlb olunması, müvafiq müsabiqələrin keçirilməsi son dərəcə vacib bir məsələdir.

Hərbi vətənpərvərlik ruhunun gənclərə aşılanması yolunda reklam və plakatların böyük rolu ola bilər. Respublikamızda bu işin təşkili olduqca yarıtmaz vəziyyətdədir. Küçə və meydanlarda siqaret və içki reklamları ilə müqayisədə vətən və müharibə mövzusuna həsr olunmuş plakat və şüarlara çox az rast gəlinir. Halbuki belə plakat və şüarlar gənclərə daim xatırlatmalıdır ki, ölkəmiz müharibə şəraitindədir, torpaqlarımız əsarətdədir və gənclər vətən uğrunda mübarizəyə daim hazır olmalıdır.

Gənc və yeniyetmələr arasında hərbi vətənpərvərlik tərbiyəsinin gücləndirilməsində Milli Ordu ilə orta məktəblərin qarşılıqlı əlaqələri mühüm yer tutur. Ayrı-ayrı hərbi hissələrin orta məktəbləri himayəyə götürməsi, onları texniki və hərbi-təlim ləvazimatı ilə təchiz etməsi, öz növbəsində orta məktəblərdən hərbi hissələrə şagird qruplarının səyahətinin təşkil olunması bu işdə çox müsbət rol oynaya bilər.

Gənc və yeniyetmələrin hərbi vətənpərvərlik əhval-ruhiyyəsinə mənfi təsir edən ən güclü amillərdən biri də onların yaşıdlarının bir hissəsinin cürbəcür dolayı yollarla Ordudan yayınması hallarıdır. Sosioloji sorğular göstərir ki, imkanlı adamların öz uşaqlarını orduya buraxmaması bütövlükdə gənclərin Ordudan yayınmasının ilk ən mühüm səbəblərindən biridir.

Gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyə edilməsi prosesinə təsir edən ən başlıca amil bu işin hələ məktəb illərindən düzgün qurulmasıdır. Aparılan sosioloji sorğular göstərir ki, bu işin təşkilində ciddi nöqsanlar və açılmamış potensiallar mövcuddur. 70 illik Sovet hakimiyyəti dövründə hərbi vətənpərvərlik üçün seçilmiş və istifadə olunmuş nümunələr, metodlar, iş prinsipi bu günün reallığı üçün yararlı hesab oluna bilməz. Azərbaycan dövlətçiliyi yolunda misilsiz şücaət göstərmiş şəxslərin (Cavanşir, Babək, Uzun Həsən, Şah İsmayıl, İbrahim xan, Cavad xan, Səttarxan, Pişəvari və digər şəxslərin) arxa planda qalması, onların igidliyi, həyat yolu barəsində gənclərin səthi məlumata malik olması narahatlıq doğurur və bu boşluğun aradan qaldırılması son dərəcə vacib və təxirəsalınmaz bir vəzifədir.

Yeniyetmə və gənclərdə milli qürur, təəssübkeşlik və hərbi vətənpərvərlik hisslərinin güclənməsində tarixlər boyu xalqımızın pərəstiş etdiyi və vaxtilə bir çox milli mərasimlərimizin bəzəyi olmuş, igidlik və qəhrəmanlıq məktəbi sayılan bir idman növünün – milli güləşin müstəsna əhəmiyyəti vardır. Təsadüfi deyil ki, cəmiyyətimizin dərin böhran içində yaşamasına baxmayaraq, idmançılarımız son illər beynəlxalq yarışlarda bu və ya buna oxşar idman növləri üzrə parlaq qələbələr qazanır.

Hərbi vətənpərvərlik ənənələrinin və hisslərinin aşılanmasında islam faktoru da mühüm rol oynayır. Çeçen və əfqan mücahidlərinin mübariz əhval-ruhiyyəsinin əsas köklərindən biri məhz islam faktoru ilə bağlıdır. Təəssüflə qeyd etmək lazımdır ki, Azərbaycan gənclərinin mentalitetində hələlik bu faktor lazımi yer tuta bilməmişdir.

Vətənpərvərlik və vətəndaşlıq hisslərinin formalaşmasında vətən anlayışının rolu çox böyükdür. Sosioloji tədqiqatlara görə gənclərimiz vətən anlayışını əsasən doğulduğu ərazi (40,8%) və mənsus olduğu millətin yaşadığı ərazi (41,8%-i) ilə eyniləşdirirlər. Mənəvi yaxınlığı olan insanların yaşadığı yer isə yalnız az sayda gənclərdə vətən təsəvvürü yaradır (13,3%). Rus dilli gənclərimizin isə əksəriyyəti (55,8%) doğulduğu ərazini vətən adlandırır. Deməli, vətən gənclər üçün əsasən coğrafi ərazidir. Vətənin dövlətçilik, tarix, adət-

ənənə ilə bağlı aspektləri şüurlarda möhkəmlənməyib. Bu aspektlər vətən anlayışının çox mühüm tərəfləridir. Ona görə də ciddi diqqət yetirilməyə ehtiyac vardır. Təəssüfedici haldır ki, gənclərin bir çoxu vətən kimi müqəddəs dəyəri, onların ömrünün, güzəranının daha xoş keçdiyi yerlə eyniləşdirirlər. Bu hal xüsusən rusdilli gənclər üçün səciyyəvidir. Onların 20,8 %-i üçün vətən məhz bir belə yerdir. Bütün bunlar gənclərimizdə vətən haqqında təsəvvürlərin hələ də sabitləşmədiyini göstərir. Gənclərimizin tam əksəriyyəti (təqribən 68 %) öz vətənlərini sevdiklərini bildirirlər. Təhsili rus dilində almış gənclərdə isə vətən məhəbbəti digərlərinə nisbətən bir qədər aşağı səviyyədədir. Rəyi soruşulanlar - rusdilli gənclərin 16 %-dən çoxu bu barədə ya heç düşünmür, ya da vətən sevgisinin boş söz olduğunu qeyd edirlər. Azərbaycan dilində təhsil almış gənclərdə bu göstərici 6 %-ə yaxındır. Bütün bunlar təhsili rus dilində almış gənclərlə daha məqsədəuyğun iş aparılmasını tələb edir.

Hazırda respublikamızda gənclərimizə demokratik dəyərlərin, qanunların öyrədilməsi sahəsində aparılan iş qənaətbəxş hesab edilə bilməz. Aparılan tədqiqatlar göstərir ki, gənclərimizin öz vətəndaşlıq hüquqları və vəzifələri barədə kifayət qədər məlumatları yoxdur. Onların yalnız müəyyən hissəsi öz hüquqları barədə tam təsəvvürə malikdirlər. Nəticədə gənclərin hüquqi və siyasi savadı onların müstəqil dövlət quruculuğunda fəal iştirak etməsi üçün kifayət etmir. Tədqiqatlar göstərir ki, gənclər öz hüquq və vəzifələri barədə bilgiləri əsasən KİV-dən alırlar (56,2%). Məktəb yaşlı gənclərin məlumat mənbəyi isə əsasən müəllimlərdir (31,2%). Gənclərin yalnız 13,6%-i bu məqsədlə xüsusi ədəbiyyata müraciət edirlər. Ona görə də bu vasitələrin gənclərin vətəndaşlıq tərbiyəsində rolu artırılmalıdır. Eyni zamanda valideynlərin bu sahədə üzərinə böyük məsuliyyət düşür.

Gənclərimizin vətənpərvərlik hisslərinin formalaşmasında bir çox amillər mühüm rol oynayır. Bütövlükdə bu amillərin təsir dərəcəsi müxtəlif olsa da, vətənpərvərlik tərbiyəsində onlar hökmən nəzərə alınmalıdır. Keçirilmiş rəy sorğusunda bu amillərin gənclərin vətənpərvərlik hisslərinin formalaşmasında rolu aşağıdakı şəkildə müəyyənləşdirilmişdir.

Aparılan tədqiqatlar göstərir ki, gənclərimiz respublikada baş verən proseslər, ölkəmizin problemləri, onun taleyi haqda dərin narahatlıq hissi keçirir. Tədqiqatlar göstərir ki, gənclərdə vətənpərvərlik hisslərinin zəifləməsinə aşağıdakı amillər daha çox təsir edir: ətrafda baş verən ədalətsizliklər, gənclərlə məqsədəuyğun işin aparılmaması, Qarabağ müharibəsində uğursuzluq, sosial-iqtisadi çətinliklər. Buna görə də sadalanan amillərin qismən öz həllini tapmasının gənclərimizdə vətənpərvərlik hisslərinin artmasına təkan verəcəyini yəqin etmək olar.

Vətənpərvərliyin mühüm amillərindən biri də vətənindən qürur hissi duymaqdır. Onun tarixi, mədəniyyəti, iqtisadi potensialı, coğrafi şəraiti, görkəmli şəxsiyyətləri insanlarda fəxarət doğurmalıdır. Tədqiqatlar göstərir ki, gənclərin sadalanan göstəricilərindən fəxr duymaları yüksək səviyyədə deyil.

Vətənin mənəvi sərvətlərini, xüsusən tarixi yaddaşını, folklorunu dərindən öyrənmədən həqiqi vətəndaş və vətənpərvər kimi yetişmək olmaz. Şəxsiyyət təkcə ailənin, məktəbin və ətraf mühitin təsiri ilə formalaşmır. Bu sahədə milli adət-ənənələr, dastanlar, nağıllar, el nəğmələri, tarixi abidələr, təbiət vətəndaşlıq tərbiyəsinin ən mühüm vasitələrindən biridir. Milli adət-ənənələrlə bağlı olan, xalqın milli əxlaqına, mədəni və mənəvi dəyərlərinə yiyələnən gəncliyin yetişdirilməsi həm də müstəqil Azərbaycan dövlətinə sadiq, onu qorumağı özünə mənəvi borc bilən gəncliyin yetişdirilməsi deməkdir.

Ədalətsiz tarixi şərait üzündən xalqın inamına, etiqadına, soykökünə qəsd edilmiş, onun musiqisi, bayramları, oyunları unutdurulmuş, dili sıxışdırılmış, adı yasaq edilmişdi. Milli adət-ənənələrimizin, tariximizin təbliği sahəsində acınacaqlı vəziyyət hökm sürürdü. Müstəqillik əldə edilməsi ilə respublikada milli dirçəliş, milli oyanış, milli tarix, mədəniyyət, dil məsələlərinin öyrənilməsinə başlanmış, bu isə gənclərdə milli ləyaqətin tərbiyə olunmasına ciddi şərait yaratmışdır.

Tarixi yaddaş və folklor uşaqlarda vətən sevgisinin yüksəlməsi, onların əsl vətəndaş kimi böyüməsinin ilk həyat mənbəyidir. Tarixi yaddaş yüksək mənəvi potensialdır. Buna görə də xalqın təlatümlü günlərində onun öz tarixi keçmişinə marağı güclənir. Təəssüf ki, tariximizin öyrənilib təbliğ edilməsində buraxılan səhvlər, mənəvi və vətənpərvərlik tərbiyəsində bu imkanlardan kifayət qədər istifadə edilməməsi vətəndaşlıq şüurunun formalaşmasına mənfi təsir göstərir. Respublikamızda milli tariximizin tədrisi və təbliğinin yarıtmaz vəziyyəti, ona qarşı laqeydlik bu sahədəki geriliyin əsas şərtlərindən biridir. Tədqiqatlar göstərir ki, gənclərimizin heç də hamısı Azərbaycan tarixini dərindən bilmir. Əksəriyyəti isə onu pis öyrəndiklərini və məlumatlarının az olduqlarını bildirmişlər. Onların Azərbaycan tarixini kifayət qədər bilməmələrinin əsas səbəbi məktəblərdə tarix fənninin lazımi səviyyədə tədris olunmamasıdır. Bütün bunlar tariximizin araşdırılması, öyrənilməsi və tədrisinə münasibətin kökündən dəyişdirilməsini tələb edir. Təəssüf ki, tariximizə yenə də birtərəfli münasibət, onu cari siyasətə uyğunlaşdırmaq, tarixi şəxsiyyətlərimizin inkarı meylləri davam etməkdədir. Bu sahədə tarix elmi də çox işlər görməlidir.

Milli tariximizdə, şifahi ədəbiyyat nümunələrində insanın vətənpərvər kimi tərbiyə olunması üçün geniş imkan vardır. Lakin hələ də gənclərimizin tərbiyəsində xalqın tarixi irsindəki müsbət cəhətlərdən, xalq hikmətlərinin təsirindən kifayət qədər istifadə olunmur.

Vətən yaşadığımız ocaqdan başladığından vətənpərvərlik hissi də milli şüurda doğma ev, kənd və şəhər haqqında məlumatlardan qidalanır. Aparılan müşahidələr göstərir ki, gənclərin ümumən Azərbaycan haqqında, öz kəndləri, şəhərləri, onun mədəni və tarixi abidələri, təbiəti haqqında geniş məlumatları yoxdur. Bu bir tərəfdən ailənin, məktəbin günahıdırsa, digər tərəfdən müvafiq dövlət orqanlarının də bu işdə günahı çoxdur. Hazırda respublikamızın müxtəlif bölgələri haqqında populyar məlumat kitabları, açıqcalar, albomlar, plakatlar, təqvimlər yox dərəcəsindədir. Bu növ materialların yayılması ilə demək olar ki, heç kim məşğul olmur.

**Həmzə Cəfərov,**
**tarix elmləri namizədi,**
**Kamran İsmayılov,**
**tarix elmləri namizədi**

*(davamı növbəti saymızda)*

**PS. Əvvəli jurnalımızın birinci sayında**